**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**ƏMR**

**№** 3-2Ü-80

**Bakı şəhəri** “23” iyul 2024 il

**“Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair Təlimat”ın yeni redaksiyada təsdiq edilməsi haqqında**

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı”nın 10.6.2-ci yarımbəndinə əsasən, qida subyektlərinin və obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsi üçün mexanizmin formalaşdırılması nəzərdə tutulmuşdur.

Bununla əlaqədar beynəlxalq təcrübə, eyni zamanda milli qanunvericiliyin tələbləri və xüsusiyyətləri nəzərə alınmaqla “Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair Təlimat” hazırlanmış və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2022-ci il 27 dekabr tarixli Ü/151 nömrəli Əmri ilə təsdiq edilmişdir. Ötən dövr ərzində qanunvericilikdə olan dəyişikliklər sözügedən Təlimatda müvafiq təkmilləşdirilmənin aparılması zərurəti yaratmışdır. Eyni zamanda Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra – İnstitut) tərəfindən “Qida Təhlükəsizliyi Reytinqi Sertifikatı”nın formasında dəyişiklik edilməsi ilə bağlı Agentliyə müvafiq təkliflər daxil olmuşdur.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi haqqında Əsasnamə”nin 3.0.28-ci və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** “Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair Təlimat” yeni redaksiyada təsdiq edilsin.

**2.** İnstitut bu əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Təlimatdan irəli gələn vəzifələri vaxtında və lazımi qaydada icrasını təmin etsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi sahibkarların Təlimatla bağlı maarifləndirilməsi üçün tədbirlər görsün, eyni zamanda reytinq ulduzu müəyyən edilmiş ictimai iaşə obyektləri barədə məlumatların ictimaiyyətə çatdırılmasını və onların siyahısının Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu əmrin surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**5.** Bu əmrin icrasına nəzarət Agentlik Aparatının rəhbəri **Elxan Mikayılova** həvalə edilsin.

**Əsas:** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinin müdiri Elşad Cəbrayılovun 2024-cü il 15 iyul tarixli D2/11/003959 nömrəli xidməti məruzəsi.

ƏSLİ İLƏ DÜZDÜR

**Sədr** **Qoşqar Təhməzli**

Nə/B Axundova N.A
23.07.24.

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi sədrinin 2024-cü il 23 iyul tarixli 3-2İL-80 nömrəli Əmri ilə **təsdiq edilmişdir.**

## Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair

## TƏLİMAT

### 1. Ümumi müddəalar

1.1. Bu Təlimat Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 aprel tarixli 1143 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın 10.6.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə hazırlanmışdır və qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair normaları ehtiva edir.

1.2. Qida təhlükəsizliyi reytinqi (bundan sonra – reytinq) "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla ictimai iaşə obyektləri üzrə cavabdeh qida subyektlərinin müraciətləri əsasında aparılır.

1.3. Reytinq ulduzu Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu (bundan sonra – İnstitut) tərəfindən aparılmış yerində qiymətləndirmənin nəticələri əsasında müəyyən edilir.

1.4. Bu Təlimatda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. **qida təhlükəsizliyi reytinqi** – qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinə yerində qiymətləndirmə nəticələrinə əsasən, müvafiq reytinq ulduzu tətbiq edilən qiymətləndirmə forması;

1.4.2. **qida təhlükəsizliyi reytinq ulduzu** – qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinə yerində qiymətləndirmə nəticələrinə əsasən, bu Təlimatın 3-cü hissəsində göstərilən meyarlar üzrə verilmiş qiymətləndirmənin nəticəsini göstərən vahid (ulduz sayı);

1.4.3. **ictimai iaşə obyekti** – qida məhsullarının istehsalı, emalı, satışı və istehlakının təşkili ilə əlaqədar sahibkarlıq fəaliyyətini həyata keçirmək məqsədilə istifadə edilən, ticarət təşkilatlarına və (və ya) fərdi sahibkarlara mülkiyyət hüququ əsasında icarə hüququ, əməli idarəetmə hüququ ilə və ya digər qanuni əsaslarla məxsus olan əmlak kompleksi.

1.5. Bu Təlimatda istifadə edilən digər anlayışlar "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlar ilə müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Reytinqin müəyyənləşdirilməsi

2.1. Reytinq ictimai iaşə obyektinə cavabdeh qida subyektinin müraciəti əsasında İnstitut ilə bağlanmış müqaviləyə uyğun olaraq xidmət haqqı ödənilməklə İnstitut tərəfindən aparılmış yerində qiymətləndirmənin nəticələri əsasında müəyyən edilir.

2.2. Reytinqin müəyyənləşdirilməsi üçün müraciət könüllü xarakter daşıyır.

2.3. Reytinq aparılmış yerində qiymətləndirmə nəticələrinə əsasən, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən, qida təcrübələri qənaətbəxş və daha yüksək səviyyədə tətbiq edilmiş ictimai iaşə obyektlərinə verilən reytinq ulduzu ilə müəyyən edilir.

2.4.Verilmiş reytinq ulduzu aşağıdakıları ehtiva edir:

2.4.1. 5 ulduz – qida təhlükəsizliyi təcrübələri mükəmməl tətbiq edilmişdir;

2.4.2. 4 ulduz - qida təhlükəsizliyi təcrübələri yaxşı tətbiq edilmişdir;

2.4.3. 3 ulduz – ictimai iaşə obyekti qida təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ hüquqi aktlarla müəyyən olunan tələblərə uyğundur.

2.5. Reytinq haqqında məlumat ictimai iaşə obyektində aparılan yerində qiymətləndirmə başa çatdıqdan sonra 10 iş günü ərzində yazılı bildiriş şəklində qida subyektinə təqdim olunur.

2.6. Reytinq yalnız bu Təlimatın 4-cü hissəsi ilə reytinqdən şikayət verilməsi üçün müəyyənləşdirilmiş müddət başa çatdıqdan sonra etibarlı sayılır.

2.7. Tərəflər arasında bağlanmış müqaviləyə əsasən, reytinq ulduzunun əks olunduğu sertifikatın qüvvədə olduğu müddət tamamlandıqdan sonra qida subyektinin müraciəti əsasında İnstitut tərəfindən aparılan növbəti yerində qiymətləndirmə zamanı ictimai iaşə obyektinin reytinqi yenidən müəyyənləşdirilir.

2.8. Reytinqi müəyyənləşdirilmiş ictimai iaşə obyekti ilə bağlı Agentlik tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılmış nəzarət tədbirləri zamanı uyğunsuzluq aşkar edildikdə və uyğunsuzluqlarla bağlı məhdudiyyət tətbiq edilərsə, Agentlik tərəfindən təqdim edilmiş məlumatlar əsasında ictimai iaşə obyektinin mövcud reytinq ulduzu 10 iş günü ərzində İnstitut tərəfindən ləğv edilir və qida subyektinin yenidən müraciət hüququ 1 il müddətinə məhdudlaşdırılır.

2.9. Modul və mobil tipli ictimai iaşə obyektlərinin reytinqi aparılmır.

2.10. Reytinq ulduzu müəyyən edilmiş ictimai iaşə obyektləri barədə məlumatların ictimaiyyətə çatdırılması məqsədilə onların siyahısı Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir və mütəmadi olaraq yenilənir.

2.11. Bu Təlimatın 2.7-ci bəndinə uyğun olaraq, yenidən qiymətləndirmə aparılmış ictimai iaşə obyekti bu Təlimatın 3-cü hissəsində nəzərdə tutulmuş meyarlara cavab vermədiyi təqdirdə obyektin reytinq ulduzu ləğv edilir və bu Təlimatın 2.10-cu bəndində nəzərdə tutulmuş siyahıdan çıxarılır.

## 3. Reytinq meyarları

3.1. Hər bir reytinq ulduzu üçün ictimai iaşə obyekti aşağıda müəyyən edilmiş tələblərə cavab verməlidir.

3.2. 3 ulduz:

3.2.1. qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verir.

3.3. 4 ulduz:

3.3.1. ictimai iaşə obyekti bu Təlimatın 3.2-ci bəndində müəyyən edilmiş tələblərə cavab verir;

3.3.2. ictimai iaşə obyekti qida təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ aktlarla ziddiyyət təşkil etməmək şərti ilə Qabaqcıl Gigiyena Təcrübəsi (Good Hygiene Practices), o cümlədən həmin obyektdə istehlak olunması məqsədilə qida məhsullarının istehsalı həyata keçirildiyi təqdirdə Qabaqcıl İstehsalat Təcrübəsi (Good Manufacturing Practices) üzrə tələblərə tam uyğundur.

3.4. 5 ulduz:

3.4.1. ictimai iaşə obyekti bu Təlimatın 3.2-ci və 3.3-cü bəndlərində müəyyən edilmiş tələblərə cavab verir;

3.4.2. ictimai iaşə obyekti qida təhlükəsizliyi sahəsində Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ aktlarla ziddiyyət təşkil etməmək şərti ilə Təhlükənin Analizi və

Kritik Nəzarət Nöqtələri (HACCP- Hazard Analysis and Critical Control Points) üzrə tələblərə tam uyğundur.

3.5. Qida təhlükəsizliyi sahəsində qüvvədə olan texniki normativ hüquqi aktlar üzrə tələblərə cavab verməyən ictimai iaşə obyektlərinə reytinq ulduzu verilmir.

## 4. Reytinq ulduzu haqqında yazılı bildiriş

4.1.Reytinq ulduzu ilə bağlı sahibkara göndərilən yazılı bildirişdə öz əksini tapmalı məlumatlar aşağıdakılardır:

4.1.1. ictimai iaşə obyekti üçün hesablanmış reytinq ulduzu;

4.1.2. aşağı reytinq göstəricisi müəyyənləşdirildiyi halda, bunun səbəbləri, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün həyata keçirilməsi zəruri olan tədbirlər;

4.1.3. müəyyənləşdirilmiş reytinq ulduzundan şikayət verilməsi qaydası.

4.2. Forması bu Təlimatın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş ictimai iaşə obyekti üçün müəyyənləşdirilmiş reytinq ulduzunu təsdiq edən sertifikat və forması bu Təlimatın 2 nömrəli əlavəsi ilə müəyyən edilmiş reytinq məlumatlarını özündə əks etdirən xüsusi yapışqanlı kağız etiket – stiker müvafiq yazılı bildiriş ilə birlikdə qida subyektinə təqdim olunur.

4.3. Reytinq ulduzunu təsdiq edən sertifikatın qüvvədə olma müddəti 1 ildir.

4.4. Reytinq ulduzu qüvvəyə mindikdən sonra stiker ictimai iaşə obyektinin görünən hissəsinə vurula bilər.

4.5. Reytinq ulduzu müəyyən edilməmiş ictimai iaşə obyektlərində stikerdən istifadə olunması və ya reytinq ulduzundan düzgün istifadə edilmədiyi hallar müəyyən edildikdə, Agentlik tərəfindən bu halların aradan qaldırılması ilə bağlı yazılı göstəriş verilir.

## 5. Reytinq ulduzundan şikayət verilməsi qaydaları

5.1.Qida subyekti ictimai iaşə obyektində aparılan yerində qiymətləndirmənin nəticələri əsasında müəyyənləşdirilmiş reytinq ulduzu ilə razılaşmadıqda reytinq ulduzu haqqında yazılı bildirişi aldığı gündən 30 gün müddətində inzibati şikayət verə bilər.

5.2.Şikayətə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müraciət daxil olduğu gündən 30 gün müddətində baxılır.

5.3. İnzibati icraatda ictimai iaşə obyektinə cavabdeh qida subyektinin iştirakı və dinlənilməsi təmin olunur.

5.4. Şikayət əsasında İnstitut qida obyektində aparılmış qiymətləndirməyə dair sənəd və sübutları yenidən nəzərdən keçirməklə “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununun 80-ci maddəsinə uyğun qərar qəbul edir.

5.5. İnzibati şikayətin verilməsi ilə bağlı təyin olunmuş müddət başa çatdıqdan sonra şikayət xarakterli müraciətlərə baxılmır.

## 6. Təkrar qiymətləndirmə üçün müraciət etmək hüququ və qiymətləndirmənin aparılma qaydaları

6.1. Aşağıdakı hallarda ictimai iaşə obyektində təkrar qiymətləndirmə aparıla bilər:

6.1.1. qiymətləndirmə nəticəsi ilə razı olmadığı və bu Təlimatın 5-ci hissəsinə əsasən, şikayət verildiyi halda;

6.1.2. reytinq ulduzunun qüvvədə olduğu müddət ərzində həmin ulduzun dəyişdirilməsi məqsədilə təkrar müraciət edildikdə;

6.1.3. ilkin qiymətləndirmə zamanı müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması ilə bağlı müraciət edildikdə.

6.2. Təkrar qiymətləndirmə zamanı yalnız aradan qaldırılmış uyğunsuzluqlar deyil, eyni zamanda ictimai iaşə obyektinin ümumi vəziyyəti haqqında qiymətləndirmə aparılır.

6.3. Obyektin yeni reytinqinin müəyyənləşdirilməsi məqsədilə aparılan təkrar qiymətləndirmə tərəflər arasında bağlanmış müqavilədə müəyyən edilmiş şərtlərə uyğun olaraq ödənişli əsaslarla həyata keçirilir.

6.4. Təkrar qiymətləndirmənin nəticələrindən asılı olaraq obyektin reytinqi yüksəldilə, olduğu kimi saxlanıla, aşağı salına və ləğv edilə bilər.

## 7. Reytinq ulduzunun ləğv edilmə əsasları

7.1. Reytinq ulduzu müəyyənləşdirilmiş ictimai iaşə obyektinin reytinq ulduzu aşağıdakı əsaslar üzrə ləğv edilir:

7.1.1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən aparılmış nəzarət tədbirləri zamanı uyğunsuzluq aşkar edildikdə və bununla bağlı məhdudiyyət tədbirləri tətbiq edildikdə;

7.1.2. qida subyekti və ya onun səlahiyyətli nümayəndəsinin ərizəsi əsasında;

7.1.3. reytinq ulduzunu təsdiq edən sertifikatın müddəti bitdikdə və yenidən qiymətləndirmə üçün müraciət edilmədikdə;

7.1.4. Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı ləğv edildikdə.

"Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair Təlimat"a

**1 nömrəli əlavə**



AQTA | AQTİ

QİDA TƏHLÜKƏSİZLİYİ
REYTİNQİ

★ ★ ★ ★ ★

SERTİFİKAT

Təqdim edilir: ____________________________

Obyektin adı (nişangahı)

Hüquqi ünvan

VÖEN

Bu sertifikat Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu tərəfindən aparılmış qiymətləndirmənin nəticələrinə əsasən təqdim olunmuşdur və ictimai iaşə obyektində qida təhlükəsizliyi təcrübələrinin tətbiqi səviyyəsini göstərir.
Sertifikat 1 il müddətinə qüvvədədir.

____________ Tarix

____________ Ad, soyad vəzifə

“Qida sahəsində fəaliyyət göstərən ictimai iaşə obyektlərinin risk göstəriciləri əsasında reytinqinin müəyyənləşdirilməsinə dair Təlimat”a

**2 nömrəli əlavə**

